# Kazuslar

**Faktların ifadəsi**

1. A, B, C və E (bundan sonra –Ərizəçilər) müsəlman dinin bir təriqətinə aid şəxslərdirlər. Həmin təriqətin inancına görə müsəlmanlar saqqal saxlamalıdırlar, saqqalın qırxılması haramdır. Onlardan A şəxsiyyət vəsiqəsini 14 iyun 2005-ci ildə alıb və 2010-cu ildə həmin şəxsiyyət vəsiqəsinin etibarlıq müddəti ötüb. Həmin tarixdən dəfələrlə şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi ilə bağlı Z rayon Pasport Qeydiyyat və Miqrasiya Xidmətinə (bundan sonra – PQMX) müraciət etsə də, saqqalı olduğu üçün müraciəti qəbul edilmir. Ona bildirilir ki, yalnız saqqalını qırxdığı halda şəxsiyyət vəsiqəsi veriləcək.

B də, 2010-cu ildə yeni şəxsiyyət vəsiqəsinin verilməsi ilə bağlı PQMX-ə müraciət edib. Lakin, saqqallı olduğu üçün yeni şəxsiyyət vəsiqəsinin verilməsindən imtina edilib. Həmçinin, ona saqqalına görə cəzalanacağı bildirilib.

2. A və B qeydiyyat idarəsinin rəisinə şikayət ediblər. Rəsin otağında bir qədər mübahisə etdikdən sonra, sonuncunun göstərişi ilə bir neçə polis əməkdaşının iştirakı ilə A və B-nin saqqalı məcburi şəkildə qırxılıb, onların şəkilləri çəkilib və növbəti gün onlara şəxsiyyət vəsiqəsi verilib.

***1-ci məsələ***

A və B onların 9-cu və 14-cü maddələrdə nəzərdə tutulan hüquqlaının pozulduğunu iddia edərək, pozuntunun tanınması və onlara kompensasiya verilməsi üçün məhkəməyə müraciət etdilər.

Ərizəçilər qrupu - Şikayəti əsaslandırın;

Hökumət qrupu – Əks arqumentlər hazırlayın.

***2-ci məsələ***

1-ci kazus fonunda C və E şəxsiyyət vəsiqəsinin verilməsi üçün müraciət etməkdən qorxdular, belə müraciət olmadan birbaşa qeydiyyat idarəsinin qanunsuz hərəkətindən məhkəməyə şikayət etdilər. Məhkəmələr şəxsiyyət vəsiqəsinin alınması üçün qeydiyyat idarəsinə bilavasitə müraciət edilmədiyini, buna görə də, mübahisənin və inzibati orqanın qanunsuz hərəkətsizliyinin mövcud olmaması kimi formal əsaslarla iddianı rədd etdi.

Konvensiyanın təbiətindən çıxış edərək, aşağıdakı suallara cavab hazırlayın:

1. Pozuntu baş veribmi və Ərizəçiləri pozuntunun qurbanı hesab etmək olarmı?
2. Pozuntuya haqqı qazandırmaq üçün hökumətin əks arqumentləri nələr ola bilər?
3. 9-cu maddə ilə yanaşı 14-cü maddənin də pozuntusunun mövcudluğunu təsdiq etmək üçün işin faktiki hallarına hansı halları daxil edərdiniz?

*Hazırladı: Sadiq Bağırov*
*Tural Hacıbəyli*